# Heydər Əliyev Fondunun təhsil siyasətinin əsas istiqamətləri

**Sahilə Orucova**
*ADPU-nun dosentİ,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
**E-mail:** sahile.orucova@yahoo.com

**Rəyçilər:** ped.ü.f.d., dos.E. Hüseynova,
ped.ü.f.d., dos.H. Cəfərov

**Açar sözlər:** Heydər Əliyev Fondu, təhsil layihələri, təhsil proqramları, təlim, tərbiyə, təhsil müəssisələrinin inkişafı və yenidən qurulması, keyfiyyətli təhsil

**Ключевые слова:** Фонд Гейдара Алиева, образовательные проекты, образовательные программы, обучение, образование, развитие и реконструкция учебных заведений, качественное образование

**Key words:** Heydar Aliyev Foundation, educational projects, educational programs, training, education, development and reconstruction of educational institutions, quality education

Son illər ölkəmizin inkişafında sosial mədəni məsələlərin həlli ilə əlaqədar zəruri tədbirlər uğurla davam etdirilir, insan amili diqqət mərkəzində dayanır, bu sahəyə xidmət göstərən sosial institutların fəaliyyətinin yaxşılaşdırılması istiqamətində mühüm işlər yerinə yetirilir. Heydər Əliyev Fondu yarandığı ilk gündən ölkənin təhsil layihələrinin reallaşdırılmasında mühüm rol oynayır. Fondun təşəbbüsü ilə həyata keçirilən sosialyönlü layihələr yeni nəslin təhsilalma şəraitinin yaxşılaşdırılması üçün geniş imkanlar açır.

Fond xalqımızın Ümummilli lideri Heydər Əliyevin xatirəsini əbədiləşdirmək məqsədilə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 10 mart 2004-cü il fərmanı əsasında yaradılmışdır.

Qeyri-hökumət və qeyri-kommersiya təşkilatı olan Heydər Əliyev Fondunun təhsil sahəsində həyata keçirdiyi tədbirlər gənclərin sosiallaşmasında, onların qəbul edilən davranış nümunələrinin mənimsənməsində, bəyənilən dəyərlər sistemini qəbul etməsində mühüm rol oynayır. Belə ki, bu təbdirlər biliklərin və mədəniyyətin nəsildən-nəslə ötürülməsi, şəxsiyyətin sosiallaşması və demokratik cəmiyyətə inteqrasiyası və orada layiqli status qazanmasına geniş imkanlar açır.

Araşdırmalar göstərir ki, fondun bütün potensialı cəmiyyətimiz və xalqımız üçün mühüm əhəmiyyət kəsb edən sosial, ictimai, mədəni problemlərin həllinə istiqamətləndirilir. Heydər Əliyev Fondu gələcəkdə təhsil sahəsində reallaşdıracağı işləri "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na uyğun olaraq qabaqcıl dünya ölkələri sırasında keyfiyyətinə və əhəmiyyətliliyinə görə üstün mövqe tutan, innovativ texnologiyalara söykənən infrastruktura malik təhsil sisteminin yaradılması üçün çoxsaylı tədbirlər nəzərdə tutur.

Heydər Əliyev Fondunun təhsil sahəsində həyata keçirdiyi tədbirlər gənc nəslin mənəvi-əxlaqi tərbiyəsinin gücləndirilməsinə, sosial vəziyyətinin yaxşılaşdırılmasına və zəngin intellektual potensialın yaradılmasına xidmət edir. Fondun reallaşdırdığı təhsil layihələrinin ümdə vəzifəsi milli dəyərlərə söykənən, vətəninə, xalqına, dövlətinə bağlı, sadiq, müasir

düşüncəli gənc nəslin formalaşdırılmasına yardımçı olmaqdır.

Heydər Əliyev Fondunun 14 illik fəaliyyətini təhlil edərkən məlum oldu ki, fond müxtəlif sahələri əhatə edən çoxsaylı sanballı layihələri uğurla həyata keçirmiş, nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıq münasibətləri yaratmış, ölkəmizdə bir sıra dövlətlərin iştirakı ilə möhtəşəm konfrans və festivalları reallaşdırmağa nail olmuşdur.

Heydər Əliyev Fondunun reallaşdırdığı layihələrinin mahiyyətini aşağıdakı istiqamətlər şəklində qruplaşdırmaq olar: 1) milli-mənəvi dəyərlərimizin yüksək səviyyədə qorunması, geniş təbliği və gələcək nəsillərə ötürülməsi; 2) elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafına istiqamətlənmiş layihələrin hazırlanması və realizə edilməsi; 3) uşaq və gənclərin sağlam, milli-mənəvi dəyərlərə əsaslanan, hərtərəfli biliklərə malik, intellektual tutumu geniş olan vətəndaşlar kimi yetişdirilməsi; 4) vətənimizin beynəlxalq nüfuzunun çiçəklənməsinə istiqamətlənmiş tədbirlər həyata keçirmək.

"Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi 2005-ci ildən realizə olunmağa başlanmışdır. Bu layihənin başlıca məqsədi təhsil sahəsində mövcud olan problemlərin həllinə dəstək olmaq, respublika miqyasında ən son standartlara cavab verən təhsil kompleksləri yaratmaq, tədrisin keyfiyyətinə birbaşa təsir edən problemləri aradan götürmək, cəmiyyətin ayrı-ayrı təbəqələrinin, daxili və xarici şirkətlərin, beynəlxalq təşkilatların bu yönümdəki birgə əməkdaşlıq imkanlarını araşdıraraq ümumi işin xeyrinə yönəltmək olmuşdur.

Bu proqram çərçivəsində 2005-2018-ci illər dövründə respublikamızın ayrı-ayrı bölgələrində 100 mindən çox şagirdin təlim-tərbiyə aldığı 400-dək məktəb binası tikilmiş və ya yenidən qurulmuşdur. Bu məktəblərin demək olar ki, hamısında müasir laboratoriya, kitabxana, yeməkxana, ən müasir avadanlıqlarla təchiz edilmiş kompyuter sinifləri, tədris emalatxanaları, idman zalları, geniş meydançalar yaradılmışdır.

Tikilən və ya yenidən qurulan məktəblərdə informatika kabinetləri, xarici dil otaqları, kimya, fizika və biologiya üzrə fənn laboratoriyaları yaradılmışdır. Kitabxanalar dərsliklər və dərs vəsaitləri ilə təmin olunaraq şagirdlərin istifadəsinə verilib. İdman zallarında müasir qurğular quraşdırılmışdır. Akt zallarında isə müxtəlif səpgili tədbirlərin keçirilməsi üçün hər cür imkan yaradılmışdır. Təhsil müəssisələrinin ətrafında geniş yaşıllıq zolaqları salınıb, abadlıq işləri aparılmışdır. Bir çox məktəbləri istilik və elektrik enerjisi ilə təmin etmək üçün qazanxana və transformator yarımstansiyaları da qurulub.

Fondun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili, birinci vitse-prezident Mehriban Əliyeva bunu haqlı olaraq belə əsaslandırır ki, uşaqlar günün müəyyən hissəsini təhsil müəssisələrində keçirir. Bu təhsil ocaqlarında olan şərait, uşaqların burada aldığı təlim-tərbiyə və bu müəssisələrdəki ab-hava olduqca vacibdir. Uşaqların ilk yaşlarından intellektual, əqli və fiziki inkişafı, onların istedad və qabiliyyətlərinin üzə çıxarılması, sağlamlığının qorunması məhz təhsil müəssisələrində formalaşır. Buna görə də təhsil müəssisələri daim diqqət mərkəzində saxlanılmalıdır.

Heydər Əliyev Fondunun uğurla həyata keçirdiyi, təhsillə bağlı layihələrindən biri də "Uşaq evləri və internat məktəblərinin inkişafı" layihəsidir. Proqram çərçivəsində ölkəmizin bir sıra bölgələrində monitorinqlər keçirilmiş, məktəbəqədər təhsil müəssisələrinin durumu araşdırılmışdır. Məlum olmuşdur ki, məktəbəqədər təhsil müəssisələrinin vəziyyəti günün tələblərinə cavab vermir.

Monitorinqin nəticəsi olaraq uşaq evlərinə və internatlara texniki dəstək, təhsil və səhiyyənin yüksəldilməsinə yardım əsas istiqamətlər kimi önə çəkilmişdir.

Araşdırmalar göstərir ki, "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı dairəsində ölkəmizdə 30-dan çox uşaq müəssisəsi əsaslı surətdə təmir edilmiş, müasir

avadanlıqlarla təchiz edilmiş, əlavə yardımçı binalar inşa edilmişdir. Müəssisələrdə kitabxanalar yeni nəşrlər hesabına zənginləşdirilmiş, müvafiq tədris vəsaitləri və bədii ədəbiyyatla təmin olunmuşdur. Təmir olunan bütün məktəblərdə, demək olar ki, kompyuter avadanlıqları quraşdırılmış, sinif otaqları interaktiv təlim üçün yararlı vəziyyətə gətirilmişdir.

Fond təkcə təhsil müəssisələrinin inkişafı və yenidən qurulması ilə işini məhdudlaşdırmır. Bu müəssisələrdə yaşayıb tərbiyə alan uşaqların vətənpərvərlik ruhunda tərbiyə olunması, onların istirahətinin və asudə vaxtının mənalı və effektiv təşkili məqsədilə mütəmadi olaraq kütləvi tədbirlər, festivallar, idman yarışları və müsabiqələr keçirir. Layihə çərçivəsində məktəblərin həyətində geniş abadlıq, quruculuq və yaşıllaşdırma işləri aparılır. Həyətdə uşaqlar üçün idman meydançaları, müxtəlif atraksion, qurğu və yelləncəklər quraşdırılır, əyləncə-istirahət guşələri düzəldilir.

Fond təkcə uşaq evləri və internat məktəblərində təhsil alanların deyil, eyni zamanda oranı bitirdikdən sonra da bu müəssisələrin sakinlərinin qayğısına qalır. Belə ki, 2016-cı ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə Azərbaycan Respublikası Ərazilərin Bərpası və Yenidən Qurulması üzrə Agentlik valideyn himayəsindən məhrum olan və uşaq evlərini bitirən gənclər üçün Masazır qəsəbəsində 2 bloklu (120 mənzil) yaşayış binası inşa etdirmişdir.

Heydər Əliyev Fondu uşaq evləri və internat məktəblərində yaşayıb tərbiyə alan istedadlı uşaqların yaradıcılığına dəstək olur, onların bacarıqlarının inkişaf etdirilməsi üçün müxtəlif sərgilər təşkil edir. Belə sərgilərdən biri 2015-ci il noyabrın 26-da Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzi və ölkə ərazisində fəaliyyət göstərən uşaq evləri və uşaq bağçalarından olan istedadlıların rəsm və digər əl işlərindən ibarət olan "Xəyallarla dolu qəlblər" sərgisidir. Sərgidə 400-ə qədər əsər nümayiş etdirilib.

Fond təkcə təhsildə olan problemlərin həllinə çalışmır, həm də bu problemlərə bütün cəmiyyətin diqqətini cəlb etməklə, onun həllində fəal iştiraka səsləmişdir. Fond ölkəmizdə fəaliyyət göstərən iş adamlarının, sahibkarların, yerli və xarici şirkətlərin, qeyri-hökumət təşkilatlarının və diplomatik korpusun səylərini birləşdirərək qısa müddətdə çox böyük işlər görmüşdür.

Fondun reallaşdırdığı təhsil layihələrinin əhəmiyyəti ondan ibarət olmuşdur ki, qısa müddət ərzində on illərlə təmir edilməmiş, tam yararsız və qəza vəziyyətində olan, təlim-tərbiyə üçün yararsız olan məktəblərin əvəzində günün tələblərinə cavab verən yeni binalar tikilməsi, keyfiyyətli tədris avadanlıqları ilə təchiz edilib, vətəndaşların ixtiyarına verilməsi olmuşdur.

Bu məktəblərin tikintisi müxtəlif bölgələrimizdəki kasıb və imkansız ailələrdən olan uşaqlar üçün bərabər təhsil imkanlarının yaradılmasına səbəb olmuşdur. Ümumiyyətlə, ölkəmizin taleyüklü problemlərinin həllində Heydər Əliyev Fondunun və şəxsən onun rəhbəri Mehriban xanım Əliyevanın çoxşaxəli və səmərəli fəaliyyəti xüsusi qeyd edilməlidir.

Fond təkcə Azərbaycanda yaşayan məktəblilər üçün deyil, həmçinin ölkə xaricində Rusiya, Gürcüstan, Hollandiya, Türkiyə və Rumıniyada yaşayan azərbaycanlı şagirdlər üçün də məktəblərin tikintisini uğurla həyata keçirmişdir.

Qeyd etmək lazımdır ki, Fond "Təhsilə dəstək" layihəsi çərçivəsində qaçqın və məcburi köçkün ailələrdən olan birinci sinif şagirdlərini hər il çanta və məktəb ləvazimatları ilə təmin edir.

Heydər Əliyev Fondunun "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək", "Uşaq evləri və internat məktəblərinin inkişafı" və "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" proqramları gənc nəslin layiqli həyat səviyyəsinin və fiziki sağlamlığının təmin edilməsi kimi

taleyüklü problemlərin həll edilməsini də nəzərdə tutur.

Araşdırmalar göstərir ki, Heydər Əliyev Fondunun reallaşdırdığı təhsilyönlü layihələrdə təhsilin məzmununun müasirləşdirilməsi, onun keyfiyyətinin yüksəldilməsi, yeni məktəblərin tikilməsi, məktəblərin maddi-texniki təminatının yaxşılaşdırılması, təhsil müəssisələrinin informasiya kommunikasiya bazasının təkmilləşdirilməsi, kompyuter və digər zəruri rəqəmsal avadanlıqlarla təminatının yaxşılaşdırılması, birinci sinif şagirdlərinin pulsuz dərslik və çanta ilə təmin edilməsi, məktəb kitabxana fondunun yeni nəşrlər hesabına zənginləşdirilməsi, şagirdlərin bütün təbəqələri üçün təhsil almaq imkanlarının bərabərləşdirilməsi, xüsusi qayğıya ehtiyacı olan şagirdlərin təhsil alma imkanlarının yaxşılaşdırılması, məktəbəqədər təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi və ehtiyac duyulan yerlərdə müasir səviyyədə yeni məktəbəqədər müəssisələrin inşası əsas istiqamətlər hesab olunur.

Heydər Əliyev Fondunun təhsil istiqamətli fəaliyyətinin ən dəyərli cəhətlərindən biri də əlil və xüsusi qayğıya ehtiyacı olan şagirdlərin qayğısına qalmasıdır. "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı bu cəhətdən çox önəmlidir. Bu proqram əlil və xüsusi qayğıya ehtiyacı olan uşaqlara öz potensiallarından geniş istifadə etməyə imkan verdi.

Məktəblilərin görüş dairəsini genişləndirmək, onların elmə, təhsilə, məktəbə marağını artırmaq, sağlam rəqabət mühiti yaratmaq üçün Fond davamlı olaraq təlim əməyi ilə xüsusi fərqlənən, müxtəlif yarışlarda uğur qazanan, kimsəsiz və valideyn himayəsindən məhrum olmuş şagirdlərin müxtəlif xarici ölkələrə səfərlərini təşkil edir, eyni zamanda digər ölkələrdən olan bu qəbil uşaqların ölkəmizə gəlməsinə və respublikamızın tarixi, mədəniyyəti və adət-ənənələri ilə tanış olmalarına geniş imkanlar yaradır.

Reallaşdırılan layihələr çərçivəsində Almaniya, Belçika Krallığı, Fransa, Gürcüstan, Niderland Krallığı, Rumıniya, Gürcüstan və Rusiya Federasiyasından olan şagirdlərin ölkəmizə səfərləri təşkil olunub. Bununla da Fond kimsəsiz və əlilliyi olan uşaqların cəmiyyətə inteqrasiyasını həyata keçirərək, bu sahədə aparılan islahatlara dəstək verir.

**Məqalənin aktuallığı.** Bu məqalənin aktuallığı ondan ibarətdir ki, təhsilin inkişaf etdirilməsi bütün dövrlərdə aktual olmuşdur.

Heydər Əliyev Fondunun reallaşdırdığı təhsil layihələri gənc nəslin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ölkəmizdə aparılan təhsil siyasətinin uğurlu və məntiqi davamı olduğu üçün aktuallıq kəsb edir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə ilk dəfə olaraq Heydər Əliyev Fondunun uğurlu təhsil siyasəti sistemli şəkildə geniş təhlil edilib ümumiləşdirilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Heydər Əliyev Fondunun reallaşdırdığı təhsil layihələri valideynləri, pedaqoji kollektivləri və ictimaiyyəti ölkədə təhsilin inkişafına diqqəti və qayğını artırmağa istiqamətləndirə bilər. Həmçinin Heydər Əliyev Fondunun reallaşdırdığı təhsil layihələri ölkəmizin məktəb və təhsil tarixinin gələcək tədqiqatçıları üçün də zəngin mənbə ola bilər.

## Ədəbiyyat

1. Yeniləşən Azərbaycana yeni məktəb. www.heydar-aliyev-foundation.org
2. Uşaq evləri və internat məktəblərinin inkişafı www.heydar-aliyev-foundation.org.
3. Kamalqızı R. Yeniləşən Azərbaycana yeni məktəb. "Səs" qəz., 2016, 13 avqust.
4. Heydər Əliyev Fondunun "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" Proqramının təqdimatı www.mehriban-aliyeva.org.az. 24.02.2014.

5. Heydər Əliyev Fondu "Təhsilə dəstək" layihəsi çərçivəsində aksiya həyata keçirir, apa.az. 04.09.2013.
6. Uşaq evləri və internat məktəblərinin məzunları üçün yaşayış binası, www.palitraneus.az. 26.09.2013
7. Məhək daşı xoşməramlılıq olan Fond www.fond.modern.az. 10.05.2013

**С. Оруджова**

## Основные направления образовательной политики Фонда Гейдара Алиева

## Резюме

В статье рассматриваются основные направления образовательной политики Фонда Гейдара Алиева, которая была сформирована в 2004 году. Образовательные результаты Фонда основаны на проводимой в нашей стране образовательной политике, направленной на решение таких проблем, как формирование знаний и культуры, интеграция личности и интеграция в демократическое общество, высокий уровень защиты Национальных и моральных ценностей, равные возможности получения образования, обеспечение достойного уровня жизни и физического здоровья молодого поколения является успешным и логичным продолжением.

**S. Orujova**

## The main directions of Heydar Aliyev Foundation's education policy

## Summary

The article examines the main directions of Heydar Aliyev Foundation's educational policy, which was formed in 2004. The educational outcomes of the Foundation are based on the educational policy carried out in our country in order to solve problems such as generation of knowledge and culture, integration of personality and integration into democratic society, high level of protection of national and moral values, equal education opportunities, ensuring decent living standards and physical health of the younger generation is a successful and logical continuation.

**Redaksiyaya daxil olub:** 21.11.2018